## AZƏRBAYCANIN NEFT SƏNAYESİ TARİXİNDƏN

# "MÖCÜZƏLƏR ADASI" TARİXİNDƏN

*Ziyadxan Nəbibəyli*
*texnika elmləri doktoru, professor*

Çox-çox qədim dövrlərdən Azərbaycanda neft tez alışan, yanan bir maye kimi insanlara məlum idi. Yeni eradan öncə VI-IV əsrlərdə Azərbaycanda neft mədənlərinin olması haqqında məlumatlar mövcuddur. Abşeron nefti haqqında bir sıra ərəb və fars tarixçi alimlərinin yazıları da günümüzə qədər gəlib çıxmışdır. Atəşpərəstlik dini-mənəvi inancının Abşeronda, Şirvanda güclü olmasının səbəblərindən biri də Abşeronun Suraxanı kəndində yerdən alovun çıxması olub, günümüzə qədər yaşamaqdadır. Suraxanı "Atəşgahı" haqqında da bir çox qədimi tarixi məlumatlar isə bütün dünyaya məlumdur. Qədim insanların Suraxanı "Atəşgahı"nı ziyarəti haqqında da yazılı məlumatlar mövcuddur.VIII əsrdə yaşamış böyük səyyah Əbu-İshaq İstəxri Bakı əhlinin ocaqlarda neftli torpağın yandırılmasından söz açır. Ərəb tarixçisi Əhməd Balazuri IX əsrin 2-ci yarısında, hələ 754-cü ildə Azərbaycan hökmdarınm Şirvanda çıxarılan neft və duza görə əhalidən vergi aldığını yazır. Abşeronda neft hasilatına aid ən geniş məlumat X əsrə aiddir. Əslən Venesiyalı olan Səyyah Makro Polonun yazdıqlarına görə XIII əsrdə Abşeronda xeyli miqdarda neft quyusu var idi.

Abşeronun Balaxanı kəndində bir neft qoyusunun yanındakı daşın üzərində həmin quyunun 1594-cü ildə Allahyar Məmmədnur oğlu tərəfindən qazıldığı göstərilir.

1863-cü ildə İranda (Cənubi Azərbaycan) İsveç müvəkkilinin katibi olan Y. Kempter Bakının ağ neftinin yaxşı müalicəvi xüsusiyyətlərindən və bu neftin Orta Asiyaya, Dağıstana, Ərəb ölkələrinə daşındığından xəbər verir.

Cavad adlı bir sahibkar 1863-cü ildə Suraxanıda ağ neft zavodu tikdirib və bu növ zavodların sayı 1870-ci ildə 47-yə çatdırılıb.

1825-ci ildə Suraxanıda, Balaxanıda, Binəqədidə, Bibiheybətdə, Şubanıda və Pirallahıda Xəzərin dayaz yerlərində xeyli miqdarda neft quyuları olmuşdur. 1848-ci ildə mühəndis F.A.Semyonovun təklifi ilə əl üsulu ilə qazıma-vurma qazıma üsulu ilə əvəz

olundu. Yəni mexanikləşdirilmiş qazıma üsulu da dünyada ilk dəfə Azərbaycanda tətbiq olundu. Bu üsul 11 il keçdikdən sonra ABŞ-da öz tətbiqini tapdı.

Elmi araşdırmalara görə VII əsrdə Bakı neft mədənlərində hər gün orta hesabla 212 pud neft çıxarılırdı. Bu əslində bütün dünyada istehsal olunan neft idi. 1872-ci ildə bu rəqəm 1,5 milyon pud, 1900-cu ildə 661 milyon pud olmaqla, bütün dünyada istehsal olunan neftin 50%-dən çoxunu təşkil edirdi.

1918-ci ildə müstəqillik əldə edən Azərbaycan Şərqdə ilk demokratik Respublika yaratdı, 23 ay yaşayan bu Respublika neft sahəsində də bir çox irəliləyişə nail oldu.

28 aprel 1920-ci ildə Qırmızı ordu Azərbaycanı yenidən işğal etdi və iki gündən sonra 30 apreldə nefti Rusiyaya yola saldı və həmin ilin sonuna qədər ruslar 10 milyon tondan artıq nefti Rusiyaya daşıya bildi. Həmin gündən 70 il müddətində ruslar Bakı vasitəsilə ilə böyük bir imperiyanı heç nəsiz neft yanacağı ilə təmin etdi, 2-ci dünya müharibəsi illərində sürtkü yağlarının 97,5%-ni təyyarə yanacağının 100%-ni, benzinin 76,7%-ni Azərbaycan nefti təmin etdi. 1899-1901-ci illərdə Azərbaycan neft hasilatına görə dünyada birinci olmaqla 11,5 milyon ton neft hasil etmişdir.

Abşeronun quru yerlərində neftin enerjisiz fantan üsulu ilə əldə edilməsi çətinləşdikcə Xəzərə doğru meyllər çoxaldı, Bakı limanından 110 kilometr Xəzərin içərilərinə doğru axtarışa başlandı. Neftçilər Bakı limanında əhəmiyyətini itirmiş köhnə gəmilərdən 7-ni götürüb, dənizin "Qara daşlar" deyilən sahəsinə gətirdilər. Onlardan "Çvanov" adlı gəmi Xəzərin Coşqun sularına batıb-qərq oldu. Elə o vaxtdan həmin sahənin adı "Çvanov" oldu.

1949-cu ildə süni surətdə yaradılmış adada kəşfiyyat məqsədilə qazılmış ilk neft quyusu güclü fontan vurdu. Beləliklə, dənizdə ilk neft quyusunun bünövrəsi qoyuldu. Bu, 1949-cu il idi. Bu eyni zamanda "Nefit daşları" Neft-Qaz çıxarılması İdarəsinin əsasının qoyulması idi. Düzdür, ilk kəşfiyyat quyusunun fontan vurması neftçiləri qlobal problemlərlə üzləşdirdi. Yeni istismar quyularının qazılması, estakada və meydançaların yaradılması, yaşayış və sosial şəbəkələrin inşası, neft çənlərinin qurulması, neft və qaz xətlərinin çəkilməsi, çıxarılan neftin nəql edilməsi kimi məsələləri həll etmək zəruri idi. Bütün bunlar tədricən həyata keçirildi və beləcə "Neft daşları" böyüməyə və inkişaf etməyə başladı, aşkar edilən yeni neft yataqlarının sayı ildən-ilə çoxaldı. Bütün bunlar isə tikinti-quraşdırma idarələrinin, qazıma şəbəkələrinin yaranmasına səbəb oldu, işlərin həcmi genişlənməyə başladı, dənizin ortasında yeni şəhər salındı.

Xəzər dünyada dibindən neft çıxarılan ilk dənizdir. Dünyada açıq dənizdə neft ilk dəfə Neft Daşlarında çıxarılmışdır. Neft Daşları Xəzər dənizində, Bakı şəhərindən 110 km şərqdə yerləşir.

1945-1948-ci illərdə geoloq Ağaqurban Əliyevin rəhbərliyi ilə SSRİ Elmlər Akademiyasının xüsusi ekspedisiyası Neft Daşlarının geoloji xəritəsini işləyib hazırlamış və yatağın sənaye üsulu ilə işlənməsini planlaşdırmışdır.

1948-ci ilin noyabr ayında Sabit Orucov, Yusif Səfərov və V.M.Roşin Qara daşlara gələrək qazılacaq ilk quyunun yerini müəyyənləşdirmişlər.

1948-ci ilin dekabr ayında inşaatçılar sərt qayaların üstündə, dirəklər üzərində ilk taxta evcik inşa etməyə başladılar və bu ev 1949-cu il mart ayının 3-də istifadəyə verilmişdir. Həmin ev indi də qorunub saxlanılır.

1949-cu ilin aprel ayında V.Roşinin rəhbərliyi ilə ilk buruq quraşdırılmışdır. 1949-cu il iyun ayının 24-də 1 №-li kəşfiyyat quyusunun qazılmasına başlanmışdır.

7 noyabr 1949-cu il tarixində ilk quyu neft fontanı vurmuş və bununla dünya nefti tarixində açıq dənizdə çıxarılmasının əsası qoyulmuş. Qara Daşlar Neft Daşlarına çevrilmişdir. Bu Neft Daşlarının ad günüdür.

Sabit Orucov, Yusif Səfərov və Ağaqurban Əliyevin təklifı ilə Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş 7 iri tonnajlı gəmi gətirilərək Qara Daşların yanında batırılmış və əfsanəvi "Yeddi gəmi adası" yaradılmışdır.

1949-cu il dekabr ayının 1-də dənizdə qazma, neftçıxarma və tikinti ilə məşğul olacaq "Azərdənizneft" istehsalat Birliyi yaradılmışdır. Onun ilk rəisi Ə.Yaqubov, baş mühəndis isə V.A.Noqayev təyin olunmuşdur.

Xəzərdə işləri operativ həll etmək üçün SSRİ Neft Sənayesi Nazirliyinin nəzdində "Başdənizneft" Ümumittifaq İstehsalat Birliyi yaradıldı. Sabit Orucov onun ilk rəisi və eyni zamanda SSRİ Neft Sənayesi Nazirliyinin müavini təyin edildi.

Neftçi Qurbanın və Mixail Kaveroçkinin briqadalarının qazdığı quyular 1950-ci ilin dekabrında neft verdi.

1951-ci il fevral ayının 18-də neft dolu ilk tanker Neft Daşlarından yola salınmışdır.

Neft Daşlarında estakadaların və estakadayanı meydançaların tikintisi 1951-ci ildən başlanmışdır.

1951-ci ildə A.Q.Əliyev, Q.Abbasov, M.Kaveroçkin, N.Babayev, A.Kamladze, S.Qrobşteyn, V.Noqayev, L.Müslumov, S.Orucov, Y.Səfərov, Ə.Yaqubov SSRİ Dövlət mükafatına layiq görülmüşlər.

1957-ci il noyabrın 21-də gecə baş vermiş qasırğa zamanı 2 briqadanın 21 nəfər işçisi qəhrəmancasına həlak olmuşlar.

1959-cu ilin mart ayında yüksək əmək nailiyyətlərinə və göstərdikləri fədakarlığa görə Qurban Abbasov, Məlik Göyçayev, Yusiv Kərimov, Mixail Kaveroçkin, Bəxtiyar Məmmədov Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər.

1961-ci ildə dənizdə neftçıxarmanın inkişafında yüksək nailiyyətlərinə görə Ə.Əlixanov, A.Biləndərli, B.Hacıyev, D.Qasımzadə, İ.Quliyev, V.Neqreyev, F.Səmədov, Z.Məliktangiyev və başqaları Lenin mükafatına layiq görülmüşlər.

Nefl Daşlarına sərnişin və yükdaşıma ilk illərdə yalnız gəmilərlə həyata keçirilmişdir. 1960-cı il iyunun 20-də Neft Daşlarına ilk vertolyot uçuş reysi həyata keçirilmişdir. Əvvəlcə Mİ-4, sonralar isə Mİ-8 vertolyotları vasitəsilə sərnişin və yüklər daşınmışdır.

1950-54-cü illərdə Neft Daşlarında 2 neftyığma məntəqəsi, 1 №-li sutəmizləyici qurğu, 16 ikimərtəbəli yaşayış evi olan qəsəbə, idarə binası, xəstəxana, aptek, dizel elektrik stansiyası, qazanxana, hamam, mağaza, yanğınsöndürən nasos stansiyası, 2 №-li əmtəə çənləri parkı və s. tikilmişdir.

1955-60-cı illərdə 300 yerlik klub, su çənləri, 100 yerlik yeməkxana, 3 №-li əmtəə çənləri parkı, 2 №-li sutəmizləyici qurğu, 6 №-li neftyığma məntəqəsi, 2 №-li yaşayış qəsəbəsi (8 ikimərtəbəli ev, qazanxana, transformator yarımstansiyası, 50 nəfərlik yeməkxana), istehsalat meydançaları, estakadalar istifadəyə verilmişdir.

1959-70-ci illərdə 2 №-li qəsəbədə yataqxana, 2 №-li kompressor stansiyası, 7 №-li neftyığma məntəqəsi, 10 №-li neftyığma məntəqəsi, 3 №-li sutəmizləyici qurğu, qəsəbədə mağaza, gəmilər üçün yanalma körpüsü, tədqiqat işləri laboratoriyası, yanğınsöndürmə nasos stansiyası, çörək zavodu, 5 №-li əmtəə çənləri parkı (ƏÇP), limonad sexi, iaşə köşkləri, sahə yataqxanaları, meydançalar, kommunikasiya xətləri, Bakının 8-ci km massivində neftçilər üçün 8 yaşayış binası istifadəyə verilmişdir.

1967-ci ildə "Neft Daşları" qəzeti təsis olunmuş və bu gün də fəaliyyət göstərir. 1971-80-ci illərdə üzgüçülük hovuzu, 6 saylı ƏÇP, qazlift kompressor stansiyası (KS-4), 1 və 2 №-li iriləşdirilmiş neftyığma məntəqəsi (İNYM) təmizləyici qurğular, Neft Daşları-Çilov sualtı qaz xətti, estakadalar, meydançalar, kommunikasiya xətləri, Bakının 8-ci km massivində uşaq bağçası və 5 yaşayış binası istifadəyə verilmişdir.

1981-90-cı illərdə qadınlar üçün 9 mərtəbəli yaşayış binası, 36000 kitab fondu olan kitabxana, ambarlar, "Neft Daşları-Dübəndi" neft boru xətti, rabitə xətləri, Dübəndində neftyığma məntəqəsi, sərnişin gəmiləri üçün yanalma körpüsü, yardımçı təsərrüfat, vertolyot meydançası, kompressor stansiyası, QTES, estakadalar, meydançalar, kommunikasiya xətləri istifadəyə verilmişdir.

1990-2000-ci illərdə qazlift sistemi təkmilləşdirilmiş, KS-5, havasıxıcı kompressor stansiyası, 4 №-li KS, 4A №-li İSQ, 3 №-li KS, 3A №-li İSQ, 3 və 4 №-li KS-in soyutma sistemləri yenidən qurulmuş, Bakıxanov qəsəbəsində 117 mənzilli yaşayış evi istifadəyə verilmişdir.

2001-2002-ci illərdə 3 №-li İSQ tikilmiş 3 №-li KS-in (II mərhələ), 3 və 4 №-li KS-lərin soyutma sistemləri yenidən qurulmuş, "Ümid idman sağlamlıq kompleksi salınmış, "Heydər Əliyev guşəsi" açılmış, Qaraçuxur qəsəbəsində 5 mərtəbəli 80 mənzilli yaşayış evi tikilmişdir.

2003-2004-cü illərdə Damba vertolyot meydançası istifadəyə verilmiş, 1,2,3, 4, 5 №-li mədənlərdə müasir tipli inzibati binalar, 915, 1100 və 1157 №-li özüllərdə isə müasir yaşayış blokları quraşdırılmış, 9 mərtəbəli yataqxana binası istifadəyə verilmiş, yeni parklar, salınmış, Heydər Əliyevin büstü, "Şəhidlər guşəsi" açılmış, neftçilərin ölməz ruhuna ehtiram əlaməti olaraq "Əbədi məşəl" alovlandırılmış, əvvəllər su basmış ərazilər xeyli abadlaşdırılmışdır.

1967-ci ildə Neft Daşlarında ən yüksək miqdarda -7,6 milyon ton neft hasil edilmişdir. Gündəlik hasilat 20820 ton olmuşdur.

1975-ci ilin iyun ayının 17-də Neft Daşlarının 25 illik yubileyi Neft Daşlarında və Bakı şəhərində dövlət səviyyəsində qeyd edilmişdir.

1999-cu ilin noyabr ayının 7-də Neft Daşlarının 50 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir.

55 il ərzində Neft Daşlarında 173 milyon tondan çox neft, 12,5 mild. $m^3$ qaz hasil edilmiş, 2000-dən çox quyu qazılıb istismara təhvil verilmiş, 300 km-ə qədər estakada, estakadayanı meydança, özüllər və digər hidrotexniki qurğular tikilib istifadəyə verilmişdir.

Keçən 55 -il ərzində neftçilər 1903 neft və suvurucu quyu qazılıb istismarçılara təhvil verilmiş, 100 km uzunluğunda estakada meydançası tikilmişdir.

Burada 1 beş mərtəbəli və 1 doqquz mərtəbəli yaşayış binası, "Neft Daşları"nda A, B, V, Q yaşayış korpusu, 18, 19 saylı beş mərtəbəli sosial obyektlər, 1 altımərtəbəli inzibati bina inşa edilmişdir.

Eyni ilə "Neft daşları"nın ehtiyaclarını ödəyən və başqa müəssisələrə realizə olunan, elektrik enerjisi istehsal edən qaz turbin elektrik stansiyası fəaliyyət göştərir. Stansiyanın illik istehsal gücü 65000 MKS-dir.

Başlıçası odur ki, "Neft daşları" NQÇİ-nin işgüzar "qara qızıl" ustaları 55 il ərzində 173 milyon 681 min ton neft hasil edib dövlətə təhvil vermiş və "Neft daşları"nın kiçik qardaşları sayılan "Günəşli", "Çıraq-1", "Çıraq-2", "Kəpəz" kimi yeni yataqlar ən perspektivli neft yataqları kimi fəaliyyət göstərirlər.

Bu illərdə "Neft Daşları" NQÇİ-nin rəislərindən Viktor Noqayev (1950-1954) SSRİ Dövlət mükafatı laureatı, Bəxtiyar Məmmədov (1954-1952) Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Dövlət mükafatı laureatı Bəhman Hacıyev (1962-1977) Lenin və Dövlət mükafatı laureatı, texnika elmləri doktoru, professor, Qurban Abbasov (1977- 1980) SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, müstəqil Azərbaycanın "Şöhrət" ordenini alan ilk neftçi Səyyad İbrahimov (1980-1991), Vaqif Hüseynov (1991-1996), Alçın Şirinzadə texnika elmləri doktoru, Beynəlxalq Şərq Neft Akademiyasının üzvü, "Tərəqqi" medalı ilə təltif olunmuşdur. (18 sentyabr 2004-cü il), və hazırda bu idarənin rəisi Qoçalı Mahmudovdur.

"Neft Daşları" NQÇİ-nin baş mühəndisləri 1950-1953- Pyotr Perevezentsev, 1953-1961 Bəhman Hacıyev, 1961-1973 Fərhad Həmzəyev, 1973-1979- Akif Cəfərov, 1979-1980 Səyyad İbrahimov, 1980-1983 Hüseynağa Əmirov, 1983-1984 Kərim Kərimov, 1984-1996 Nuru Nuruyev, 1996-2003 Şahin İsmayılov və 2003-cü ildən Məhəmməd Ağayevdir.

Hazırda "Neft Daşları" NQÇİ-nin "Azərneft" İB-nin qabaqcıl neftçıxarma müəssisələrindəndir. Dəniz neftçiləri neft hasilatı və təhvili üzrə qarşıya qoyulmuş tapşırıqları

yerinə yetirmək əzmilə çalışmışlar. Neft hasilatı üzrə 453189 ton neft hasil edilmişdir, "Neft Daşları" NQÇİ-nin uğurları artır.

NQÇİ-də qazlift üsulu ilə 325031 ton keçən ilin müvafiq dövrü ilə müqayisədə + 4256 ton və ya 1,3 faiz çox neft alınmışdır.

Keçici quyulardan isə 447316 ton neft çıxarılmışdır. 448960 ton neft dövlətə təhvil verilmişdir. Qaz hasilatı üzrə plan 100 faiz yerinə yetirilmişdir.

Qaz satışı (əmtəəlik qaz) üzrə plan da 100 faiz yerinə yetirilmişdir. Hazırda NQÇİ-nin 490 istismar quyu fondu var. Ondan da 87,5 faiz, yəni 429-u fəaliyyətdə olan quyu fondunu təşkil edir. Bu quyu fondunun 369-u qazlift üsulu ilə, 58-i fontan, 2-si isə dərinlik nasos üsulu ilə istismar olunur.

"Neft Daşları" 2013-cü ilin 1-ci yarısı NQÇİ üzrə qazımadan 6 quyu istismara daxil edilmişdir. Bu quyulardan 4197 ton neft hasil edilmiş. fəaliyyətsiz 7 quyu bərpa edilib istismara daxil olunmuşdur və bu quyulardan 1676 ton neft alınmışdır. İstismar quyularında hasilatı sabit saxlamaq üçün əsaslı təmirlər aparılmışdır. Bu baxımdan 2013-cü ilin əvvəlindən NQÇİ-də 106 təmir əvəzinə 131 əsaslı 314 yeraltı təmir işləri aparılmışdır. Əsaslı təmirdən sonra 31928 ton neft hasil edilmişdir.

NQÇİ-də 2013-cü ilin 6 ayında 82 geoloji tədbir həyata keçirilmiş və bunun hesabına 22872 ton neft hasil olunmuşdur. "Neft Daşları" NQÇİ-də bu il köhnə quyularda neft hasilatını sabit saxlamaq məqsədilə 150 tədbirə qarşı 291 texniki tədbir həyata keçirilib və nəticədə 8094 ton neft hasil olunmuşdur, ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 73 tədbir daha çoxdur.

NQÇİ-də lay təzyiqini saxlamaq üçün 12 quyu vasitəsilə 153449 kubmetr həcmində laylara su vurulmuş və bunun hesabına 10013 ton neft hasil etmək mümkün olmuşdur.

NQÇİ-də 2013-cü ilin 6 ayı ərzində 71220.6 min kv/saat elektrik enerjisi istehsal edilmiş, keçən və elektrik enerjisinin 28757,7 min kvadrat saatı idarənin öz tələbatına sərf edilmişdir. Neft hasilatına sərf olunan elektrik enerjisi 28227,047 min kv/saat səviyyəsinə çatmışdır. Digər istehsalat proseslərinə isə 501,976 min kv/saat elektrik enerjisi sərf edilmişdir.

2013-cü ilin 6 ayı ərzində əsaslı vəsait qoyulmuşu 50367,2 min manat əvəzinə 53074,9 min manat olmuş, plan 105 faiz yerinə yetirilmişdir. Yəni keçən ilin müvafiq dövrü ilə müqayisədə 6655,1 min manat çox olmuşdur. Bununla yanaşı "Neft Daşları" NQÇİ-də 2013-cü ilin 6 ayı ərzində 17 obyektdə əsaslı tikinti işləri aparılmış, qazma işləri üzrə 2013-cü ilin 6 ayı ərzində 13283 min manatlıq əsaslı vəsait xərclənmişdir.

Eyni ilə 2013-cü ilin 6 ayı ərzində əsaslı təmir işlərinə 19372,2 min manat xərclənməklə, plan 180 faiz yerinə yetirilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə əsaslı təmir işləri üzrə xərclərlə çoxalmaya səbəb istehsalat zəruriyyəti ilə əlaqədar olaraq işlərin ahənginin sürətləndirilməsi olmuşdur.

Günümüzdə əsas işlərdən biri də ətraf mühitin mühafızəsi məsələsidir. NQÇİ-də 2013-cü ilin 6 ayı ərzində hasil olan 228511 kubmetr lay suyu utilizasiya olunmuşdur.

2013-cü ilin 6 ay ərzində keçirilmiş geoloji tədbir nəticəsində ilin əvvəlindən 5417 kubmetr lay suyunun hasilatı azalmış və 7 quyu ləğv edilmişdir.

Həm də ilin 6 ayı ərzində "Əks Osmos" qurğusunda 40310 kubmetr dəniz suyu şirinləşdirilmişdir. 2012-ci ilin noyabr ayından şirinləşdirilmiş dəniz suyu İES-də qızdırılaraq fasiləsiz olaraq yataqxanalara verilir.

NQÇİ-də məişət tullantılarını zərərsizləşdirmək üçün quraşdırılaraq istifadəyə verilmiş A 2600 HF tipli sobada hər gün 205-225 kiloqram məişət tullantısı utilizasiya edilir. Bununla yanaşı 2013-cü ilin 6 ayı ərzində Biomass tipli təmizləyici qurğuda 64340 kubmetr çirkab məişət suları emal olunaraq təmiz vəziyyətə gətirilmişdir.

Ekoloji və iqtisadi baxımdan sərfəli olan alçaq təzyiqli qazların tutulması üçün meydançalarda quraşdırılmış NKQ-T 10-2,5-12 markalı kompressor qurğuları yenisi ilə əvəzlənmişdir ki, bu da gündəlik 930-950 min kubmetrdən artıq qazın tutulub təkrar emalına şərait yaratmışdır.

NQÇİ-də quyuların təmiri zamanı yuma işləri aparılarkən dənizin çirklənməsinin qarşısının alınması məqsədilə müxtəlif meydançalarda qapalı yuma qurğusu quraşdırılmışdır ki, bu da Xəzərin çirklənməsinin qarşısını almaq üçün çox vacibdir.

"Nefit Daşları" NQÇİ-nin sərhədləri çərçivəsində 2013-cü ilin 6 ayı ərzində ekoloji duruma yaxşı təsir edən digər işlər də mütəmadi aparılır və bu işlər gələcəkdə də davam etdiriləcəkdir.

NQÇİ-də ayrı-ayrı dəniz özüllərində, sex və mədən ərazilərində mütəmadi monitorinqlərin keçirilməsi də nəzərdə tutulur.

"Neft Daşları" NQÇİ-si Azərbaycan Respublikasının iqtisadi və siyasi qüdrətinin artırılması üçün səylərini daha da artırmalı, dünyada neft ölkəsi kimi şərəfli uğurlarını həmişə olduğu kimi, günümüzdə də ən yüksək pillədə saxlama əzmində qalmalıdır.